Regionlarla tanışlıq şagirdlərdə vətənpərvərlik hissinin formalaşmasında əvəzsiz rol oynayır

Qəbələdə keçirilən maarifləndirici tur-aksiya yekunlaşıb

Respublikamızın şəhər və rayonlarının IX-XI sinif şagirdləri üçün "Ölkəmizi tanıyaq" devizi ilə keçirilən növbəti maarifləndirici tur-aksiya Qəbələdə uğurla başa çatıb.

Qəbələ-Şəki-Zaqatala-Qəbələ marşrutu üzrə keçirilən tur-aksiyada iştirak edən Şirvan, Xızı, Tovuz, Siyəzən, Şabran, İmişli, Göygöl, Füzuli, Xaçmaz, Qusar və Quba məktəblilərindən ibarət 11 qrup noyabrın 20-də Qəbələdən yaşadıqları rayonlara yola düşüblər.

Yola düşməzdən əvvəl şagirdlər Azərbaycan İntellektual Klublar Assosiasiyasının təşkilatçılığı ilə "Qafqaz Karvansaray" otelində keçirilən "Nə? Harada? Nə zaman?" adlı intellektual oyunda iştirak ediblər. Məktəblilərin bilik və bacarıqlarını nümayiş etdirdikləri oyun gərgin mübarizə şəraitində keçib. Ümumilikdə 50-dən çox komandanın iştirak etdiyi oyunun nəticələrinə görə İmişli məktəbliləri 1-ci, Xaçmaz şagirdləri 2-ci, Qusar komandası isə 3-cü yerə layiq görülüb. Qaliblərə kubok, medal və sertifikatlar təqdim olunub.

Sonra tur-aksiya iştirakçıları "Qəbələnd" İstirahət və Əyləncə Mərkəzində olublar. Məktəblilər müxtəlif oyun aparatları və attraksionlardan istifadə edərək əyləniblər.

Qəbələ Rayon İcra Hakimiyyətinin və təhsil şöbəsinin məsul işçiləri tərəfindən yola salınan tur-aksiya iştirakçıları onlara göstərilən diqqət və qayğıya görə Prezident İlham Əliyevə minnətdarlıqlarını ifadə ediblər. Sonra "Qafqaz Yeddi Gözəl" və "Qafqaz Karvansaray" otellərinin qarşısından şagirdləri yaşadıqları rayonlara aparan avtobus karvanı yola düşüb.

Qeyd edək ki, 11 şəhər və rayondan 440 məktəbli 17-20 noyabr tarixdə Qəbələ rayonunun sosial-iqtisadi inkişafı istiqamətində görülən işlər, son illərdə inşa edilən sosial obyektlər, əyləncə və istirahət mərkəzləri, tarixi-mədəniyyət abidələri, turizm obyektləri və muzeylərlə tanış olublar. Şagirdlərin iştirakı ilə intellektual oyunlar, müxtəlif viktorinalar keçirilib, musiqili-əyləncəli gecə təşkil olunub. Ekskursiya zamanı gözəl təbiət qoynunda istirahət edən, mənzərəli guşələrdə xatirə şəkilləri çəkdirən məktəblilər Qəbələdən xoş təəssüratlarla ayrılıblar.

«Qəbələ».

İlkin Vəlizadə.

Tolerantlıq cəmiyyətimizin əsas qayəsidir

Dövlət başçısı cənab İlham Əliyev tərəfindən 2016-cı ilin «Multikulturalizm ili» elan edilməsi ilə əlaqədar olaraq Azərbaycanda ümumölkə miqyaslı tədbirlərlə yanaşı bölgələrdə də çox sayda maraqlı tədbirlər keçirilir. Rayonumuzda belə növbəti tədbir «Tolerantlığın Azərbaycan nümunəsi» mövzusuna həsr olunmuşdu. Rayon icra hakimiyyətinin və Azərbaycan Respublikası Prezidenti yanında Bilik Fondunun Qəbələ Şöbəsinin təşkilatçılığı ilə keçirilən tədbirə ziyalılar, ictimaiyyətin nümayəndələri dəvət edilmişdi.

Tədbiri giriş sözü ilə Qəbələ Rayon İcra Hakimiyyəti başçısının müavini Ətayə Osmanova açmışdır. Sonra söz tədbirdə iştirak edən Azərbaycan Respublikası Prezidenti yanında Bilik Fondunun mühaziraçisi, Azərbaycan Respublikası Milli Elmlər Akademiyasının Fəlsəfə İnstitutunun aparıcı elmi işçisi, fəlsəfə üzrə fəlsəfə doktoru, dosent Zeynəddin Şabanova verilmişdir.

Zeynəddin Şabanov qeyd etmişdir ki, tolerantlıq məsələsi hələ 4—5 əsr bundan öncə insanları düşündürən bir problemə çevrilmişdir. 1645-ci il Versal sülhündən sonra bir sıra dövlətlərdə tolerantlıq qanun halına salınsa da bu problem həllini tapmamışdır. Nəhayət 20-ci əsrin ikinci yarısında Birləşmiş Millətlər Təşkilatı 16 noyabrın Tolerantlıq Günü kimi qeyd olunmasını bütün üzv dövlətlərə tövsiyə etmişdir. Hazırda dünyanın 175 ölkəsində bu gün qeyd olunur. Ancaq faktiki olaraq dünyanın daha az ölkəsində tolerantlığa—milli, irqi,dini və sair ayrıseçkiliyə dair həqiqi mübarizə aparılır.

Natiq vətənimiz Azərbaycanın əsl tolerantlıq nümunəsi olduğunu və bir çox beynəlxalq təşkilatların da ölkəmizdə hökm sürən tolerantlıq nümunəsindən razı qaldıqlarını qeyd etmişdir. Zeynəddin Şabanov bu tolerantlığı qoruyub saxlamaq və daha da inkişaf etdirməyin vacibliyini, eləcə də bu sahədə hər kəsin üzərinə vəzifə düşdüyünü bildirmişdir.

İştirakçıların maraqlı dialoqu ilə davam edən tədbir RİH başçısının müavini Ətayə Osmanova tərəfindən yekunlaşdırılmışdır.

Qüdrət SƏMƏDOV.

Səhrab Umuyev.

Kənd yolu təmir edildi

Yeni Dizaxlı Bələdiyyəsinin tərkibində olan Dizaxlı kəndində kəndarası yol bərbad vəziyyətdə idi. Uzun illər ərzində yol təmir olunmadığına görə əmələ gələn çala-çökəklər piyadaların və avtonəqliyyat vasitələrinin hərəkətinə əngəl törədirdi. Bu, kənd sakinlərinin haqlı narazılığına səbəb olurdu. Kənd bələdiyyəsi vəziyyəti nəzərə alaraq 1 kilometr uzunluğunda olan bu yola qumçınqıl daşıtmış və yol hamarlanaraq qaydaya salınmışdır. İndi sakinlər yeni təmir edilmiş yoldan rahat istifadə edirlər.

«Qəbələ».

Tütün istehsalçılarına subsidiyanın verilməsi qaydaları təsdiqlənib

Nazirlər Kabineti tütün istehsalçılarına dövlət büdcəsinin vəsaiti hesabına subsidiyanın verilməsi qaydasının təsdiq olunması haqqında qərar qəbul edib.

Qaydalara əsasən istehsalçılara emal müəssisələrinə satdıqları quru tütünün hər bir kiloqramına, yaş tütünün isə hər 10 kiloqramına görə 0,05 manat məbləğində subsidiya verilir. Subsidiya istehsalçı olan hüquqi şəxslərin hesablaşma hesablarına və fiziki şəxslərin cari (xüsusi kart) hesablarına köçürülməklə ödənilir.

Rayon (şəhər) üzrə istehsalçılara subsidiyanın verilməsi ilə bağlı işin təşkili Kənd Təsərrüfatı Nazirliyinin rayon və şəhər idarələri tərəfindən həyata keçirilir.

«Qəbələ».